

Malik OTARBAYEV

# BUDAĞINDAN QOPAN YARPAQ

hekayə

Ağacların yollara səpdiyi yarpaqları sovurmaqdaydı xəzan küləyi. Qatar-qatar gələn buludlar payızdan qışa köç edirdi. Uzaqdakı meşələrin hüznlü uğultuları, dərələrdən axıb gedən çayların şırıltıları duyulurdu.

Soyuq rüzgar əcəlin əli kimi yarpaqları budağından qoparaq havada ayrılıq rəqsini oynadırdı. Saralan yarpaqlar yaşam zamanının bitdiyini göstərmək istəyirmiş kimi torpağın üstünə enirdi bir-bir.

Bura məzarlıq idi.

Babasıyla nənəsinin Tölegen məzar daşını əlləriylə oxşayaraq sanki onlara təsəlli verməyə, ovutmağa çalışırdı. Dodaqlarında duaları səsləndikcə göz yaşlarını saxlaya bilmədi. Həsrət hislərini oyandıran yarpağın düşüşü onu uşaqlıq günlərinə doğru çəkdi. Fikrə gedən gözlərinə və yanaqlarına toxunmağa başlamışdı bir hənirti.

O günlərdə...

Bir dediyini iki etməyən nənəsi onun şirnikləndirib ağlını azdırırdı. Cibindən şirniləri, noğulları əskik olmazdı. Arxasına mindirib qapı-qapı gəzdirərdi. Hər kəsdən onu çox sevərdi... Həyatı boyunca ibtidai məktəbdə çalışan babası isə ən sevdiyi müəlliminin adını vermişdi ona. “Mənim nəvəm Tölegen Bəy kimi elm sahibi olsun!” deyə dua etmişdi qulağına əzan oxuyaraq. Ölümündənə əvvəl qəzetdə nəvəsinin rəsmi çıxması münasibətiylə bir qara qoçu qurban kəsib kasıblara paylamışdı ...

O anda quşların civiltisi ruhuna yeni həyat sevincin qatmağındaydı. Qəbiristan fərqli bir dünya kimiydi. Səssizdi; amma bu səssizliyinə həyatın gerçəklərini qışqıraraq izah edirdi. Ətrafını əhatə edən qovaq ağacları budaqlarını uzadaraq yalvarış içində sirli dualarını uğultuyla göyə doğru göndərməkdəydilər.

Tölegen fikrində baba və nənəsiylə vidalaşaraq qəbirlərin yanından ayrıldı.

Qəbiristanın çıxış qapısına doğru ilan kimi qıvrılan incə bir cığırı tutub irəlilədi. Yol boyu son aylar məzar daşlarına hələ adlar yazılmayan qəbirlərin çoxalmış olduğunu gördü.

Çıxış qapısına yaxınlaşanda tənha bir məzarın başında inləyərək ağlayan yaşlı bir qadını gördü. Gözyaşını baş örtüyünun ucuyla silərək, “Qızım, övladım, səni diri-diri basdırdılar! Canlı canlı atdılar uçurumdan! “deyə sayıqlayan zavallı qadın, diz çökərək məzar daşına sarılırdı.

- Allah Allah! Bu qadın kimdir, görəsən? deyə düşündü. Məzar daşındakı yazıları oxuya bilmək üçün qəbirə tərəf addımladı. Addımların cığırdakı xəzan yarpaqları üzərində ətrafa yayılan xışıltıdan birdən-birə arxasına dönən yaşlı qadının onu gördüyündə gözlərindən atəş fışqırırdı. Dümağ saçları dağınıq idi. Üzü gömgöy göyərmişdi. Diqqətlə Tölegenə baxdı. Sonra hikkə ilə qaşlarını çataraq:

- Yaxınlaşma! Qızımı diri-diri torpağa basdıran sənsən, yaxınlaşma! Çıx get buradan! “deyə qışqırdı.

- Yox, xanım! Mən ancaq təsəlli etmək istədim...

- Mənim kiçik mələyimi sizlər öldürdünüz! Hamınız cavab verəcəksiniz!

- Xədicə xala! Məni tanıyamadımmı? Mən qonşunuz Gülnazın oğluyam... Allah rəhmət eləsinz.

- Xeyr! dedi, - ağlayaraq. “Əslində, onu mən basdırdım... Diri-diri boğazladım övladımı, mən, mən...”

- Mən də Türkiyədən yeni gəldim, Xədicə xala. Tətil üçün ... - demək istəyəndə birdən-birə sözünü kəsərək;

- Mələyimi atası öldürdü ... O da cavab verəcək, sən də... Hər kəsin yaxasına yapışacağım. Get burdan!

Tölegen bir müddət səssiz qaldı və;

- Başınız sağ olsun! deyərək oradan uzaqlaşdı.

Quşlar qulaq kəsilmişdi. Külək aram-aram əsməyə başladı. Hava birdən-birə soyudu.

Qəbiristanlıqdan uzaqlaşan Tölegen iliklərinə qədər üşüdü.

Əvvəllər ona hər zaman isti çörək göndərən Xədicə xalanın sözlərinə bir məna verə bilmədi. Yeganə qızının vəfat etdiyini eşitmişdi, amma öldürüldüyündən xəbəri yox idi. Şübhəsiz ki, ana ürəyi dözə bilməzdi bu müsibətə. Xədicə xalanı bu qədər yaşlı görməmişdi daha əvvəl. Qızının ölümü, həqiqətən, qadını üzüb əldən salmışdı...

Amma ata da qızını öldürərmi heç? Olmaya başqa biri öldürmüş? Niyə öldürüblər, görəsən? Qızı orta məktəb şagirdi deyildimi? Həm ədəbli, həm də çox bacarıqlı biri idi. Kim bilir bəlkə qəza keçirib?

Qara dağlardan əsən küləyə qarşı gedən Tölegen xəyalını məcbur edib ürəyinin dərinliyinə baş vurardu. Nədənsə, o anda babasıyla nənəsinin yoxluğunu hiss etdi. Onların bir zamanlar ruhunu oxşayan şəfqət dolu duyğularının xiffətini çəkdi. Buludları deşən günəş şüaları kimi içindəki ağını aradan qaldıracaq tərtəmiz hisslərə ehtiyacı vardı. İndi sanki qəbiristanlıqda Xədicə xalanın qızı deyil, o özü idi dəfn olunan. Torpağın üstündə yox, altında idi sanki. Həm mənasız, həm də dərin mənaları ehtiva edən yaşlı qadının o acı sözləri könlünü daraltmıştı. Necə olub da diri-diri basdırılıb? İnsan öz övladını çuxura atar mı? Hansı günahla o günahsız qızcığaz öldürülmüş görəsən?

...Rüzgar zorla qanad çırpan quşların inadını qıraraq əsirdi. Küləyə qarşı uçan quşların səsi o əsnada qəbiristanlıqdakı qız uşaqlarının ağlamaları kimi duyulur. “Ana, Anaaa!.. Atacan! ..”

Birdən-birə diksindi və arxaya dönərək qəbiristanlığa doğru baxdı. Firuzəyi bahar rəngiylə boyanan tənək yarpaqları budaqlarından qoparaq tökülürdü. Baharı solurdu güllər, çiçəklər. Ağaclar da cənazədə düzülən camaat kimiydi. Yerindən qımıldamayan dilsiz daşlar heykələ çevrilən bir mələyə bənzəyirdi. Dirilişin keşikçiləri idi onlar. Əbədi həyatın muştuluğu bəlkə də onlarda gizli idi.

Tölegen bir ağacın yanında xəyala daldı. Küləyin qumları sovurduğu isti diyarlara düşmüşdü. Geriyə doğru əsrləri aşaraq, dövrləri dəyişərək qaranlığın aydınlığa hamilə olduğu dövürdəydi sanki. İnsanların cəhalətə məğlub olduqları zamana çatmışdı. Gələcəyi bağrında daşıyan qız övladlarını diri-diri basdıran qövmün zülmünə şahid olurdu ...

* * *

...Roma və Sasani İmperatorluqlarının hökm sürdüyü illəri idi. Ay hələ Vida Təpəsindən doğmamışdı.

İzsiz Ərəb çöllərində heç dayanmayan küləklər qumları təpədən təpəyə daşıyırdı. Yandıqca yanan çöllərə sərinlik çökürdü. Gecəydi...

...Evlərdən yüksələn səslər çölün uğultusunda qarışdı. Qonşu qadınları doğan qadına yardım üçün qonşu evə axışdılar. Çöldə ilk övladının doğumunu gözləyən adam həm sevincli, həm də kədərliydi. O anda könlünü işıqlandıran on dörd gecəlik aydan müjdə və möcüzə gözləyirdi...

Evin içindən körpənin qışqırıq səsi eşidildi. O birdən-birə həyəcanlandı. Qapını araladı və içəriyə girər-girməz; “Qızmı, oğlanmı?” deyə soruşdu. Qadınlar sevinclərini gizləyərək səssiz qaldılar. Körpəsini qucağına alan ana sevincindən ağlayırdı:

- Qızımız oldu... gələcək oğullarımızın bacısı... Ata oldun ...” dedi tər içində ana.

O nə deyəcəyini bilmədi. Sevinmədi; sevinə bilməzdi, tam tərsinə hirsindən udqundu. Üzü qapqara qaralmış halda çölə çıxdı. “Xalqın içində necə gəzərəm mən? Belə ata olmaqdansa, itib yerin dibinə girsəm min dəfə yaxşı olmazdımı? “deyə düşündü.

* * *

Əslində, onun gözlədiyi müjdə bu deyildi. Çünki qohumlarının ona acıqlanacaqlarını bilirdi. Dostları ondan uzaqlaşacaqdı. Qonşuları göz aydınlığı vermək yerinə üzünə baxmayacaqlardı. Belə bir ləkəni qəbul edə bilməyəcəkdi. Çünki, o dövrdə qadın elə dəyərsizdi ki, hətta heyvanlardan daha az hörmətləri vardı. Qadın ancaq əylәncə ünsürüydü. Bu səbəbdən hər zaman xor baxılırdı Qadınlar yalnız Ərəb çöllərində deyil, Romada, Sasanilərin arasında da eyni taleyə sahibdilər.

Hirsindən ürəyi sıxıldı. Bədirlənmiş ayın işığında qaranlığı yararaq kimsəsiz çöllərə doğru yol aldı. Küləklə sovrulan qumlar üzünə çarpırdı. Sonra yanıb sönən ulduzlara baxaraq qışqırdı: “Mənim nə günahım var ?!”

Göyə doğru yüksələn qışqırıqlar çölün dibsiz qaranlığında itib yox olurdu.

Qarşısında iki yolu vardı: ya qızını bağışlayıb yaşmasına qərar verəcəkdi, ya da...

Şübhlər ondan əl çəkmirdi. Min cür tərəddüd içindəydi. Tam da o əsnada əlindəki bellə çuxur qazan birinə rast gəldi:

- “Yoxsa mənim başıma gələnlər sənindəmi başına gəldi?” deyə soruşdu. Çuxuru qazan adam udqunaraq: - “Sən bu taleyə bir bax. Olası şey deyil?! “dedi.

“Qadınlar kişiləri doğurmaz oldular.” “Bax gör bu gün neçə çıxır qazılıb? Tanrılarımız bağışlasın, bizi nə deyək?!”

O gecə evinə döndü və xanımın təkidi, yalvar-yaxışıyla qızına həyat bağışladı. Lakin aldığı bu qərarından əzab çəkəcəyini də yaxşı bilirdi...

Onu topa-topa buludlara mindirərək əsrlər ardına aparan soyuq küləklər dindi. Düşüncənin dərinliyində gəzən Tölegen qəfildən burnuna vuran torpaq qoxusundan diksindi. Həyatlarını itirən övladların torpağa qarışan ölümün qoxusunu almış kimiydi. Ürəyi titrədi, burnu sızladı. Göy üzünə yoldaşlıq edərək ağladı. Ağır-ağır yerindən qalxıb evinə doğru getdi. Küçədə ip atlayaraq oynayan qızlar yağışın yağmasına sevinirdilər. “Yağışın altında nə qədər çox qalsan, o qədər tez böyüyərsən,” deyərək gülüşdülər. Həyatın xoşbəxtliyi o şirin gülüşlərdə gizli idi. İslanan üzlərini silərək ceyran balası kimi atılıb düşürdülər. Çiçəkdən-çiçəyə qonan kəpənəklər kimi dümağ qanadlarıyla günahından ötəri yanıb-tutuşanların könüllərini sərinlədirdi. Bir ömür deyil, min ömür bu kəpənəklərin uğuruna fəda edilməyə dəyərdi.

Gülümsədi Tölegen. Dərin nəfəs alaraq yoluna davam etdi. “Veda Təpəsinə Ay doğmasaydı nə olardı halımız? O kimsəsiz çöllərdə Gül bitməsəydi sevgi dilini anlaya bilərdikmi? Zəmzəm sularını içərək içimizdəki yanğını söndürə bilərdikmi? İnsanlıq adına edilən bu qədər gözəllikdən kam ala bilərdikmi?” deyə düşündü.

Ya o adam kimi öz övladımızı çuxura atacaq, ya da...

* * *

***İllər keçdi.***
***Ucsuz-bucaqsız səhra...***
***Günəş, səmada bir dar ağacı...***
***Hər şey, amma hər şey su dilənirdi...***

Zülm zirvədə, ədalətsizlik ən pik nöqtəsindəydi. Bəşər gorəşənləriylə belə ittifaq bağlamışdı. Dişli olan dişsizi paça-parça edir, dişsizlər isə çarəsizdi.

Anaların için-için ağlamaqdan başqa çarələri yoxdu. Ataların ürəkləri möhür vurulmuş daşdı. Doğulduğu gecə qızına həyat bağışlayan adam utancından iş gedə bilmir, dostlarıyla əvvəlki kimi görüşmür, qohumlarını evinə dəvət edə bilmirdi. Qızından sonra daha uşaqları olmayınca ailəyə ən yaxın olan insanlar günahsız övladı şeytan gözündə görməyə davam etdilər. Bu uşaq olmasaydı guya, Tanrılar onlara daha gözəl bir oğlan bəxş edəcəkdi

Qızı böyümüşdü. Qəfəsdə böyüyən nazlı quş kimi. Anası zaman-zaman qızını dayısı uşaqları ilə oynasın deyə qardaşı evinə aparırdı. Qızcığaz dayısını çox sevərdi.

...Həyatından bezən adam gecə vaxtı səhrada bir çuxur qazdı. Qərarlı idi.

***(Davamı səhifə 17-də)***